

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 239 (20.893)

20 dekabr 2013-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Dekabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva "Şahdağ" qış-yay turizm kompleksində olmuşlar.

Dövlətimizin başçısı və xanımı "Şahdağ", "Pik Palas" otellərinin açılışında və 2013-cü ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak etmişlər.

Dövlətimizin başçısı və xanımı əvvəlcə beşulduzlu "Pik Palas" otelinin açılışında iştirak etdilər.

Prezident İlham Əliyev otelin rəmzi açılışını bildirən lenti kəsdi.

Paytaxtdan 230 kilometr şimalda, "Şahdağ" qış-yay turizm kompleksində yerləşən "Pik Palas" oteli dağların əzəmətli gözəlliyi ilə əhatə olunmuşdur və onun hər bir elementi məmnunluq doğurur.

Dövlətimizin başçısı otelin fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva yeni tikilmiş beşulduzlu "Şahdağ" otelinin açılış mərasimində iştirak etdilər.

Azərbaycan Prezidenti otelin rəmzi açılışını bildirən lenti kəsdi.

Dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva 2013-cü ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak etdilər.

Azərbaycan Prezidenti mərasimdə nitq söylədi.

## "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 22 oktyabr tarixli 770-IVQD nömrəli Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2013-cü il 22 oktyabr tarixli 770-IVQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. Müəyyən edilsin ki, "Məhkəmə-Hüquq Şurası haqqında" Azərbaycan Respublikası Qanununun 11.0.4-1-ci və 12.0.4-1-ci maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasının ərazisində (yalnız birinci instansiya məhkəmələrinə münasibətdə) Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi həyata keçirir.

**İlham ƏLİYEV**

**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 18 dekabr 2013-cü il*

## "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin

### Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılmasının təmin edilməsi məqsədilə **qərara alıram:**

1. "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" təsdiq edilsin (əlavə olunur).

2. Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi bu Sərəncamın 1-ci hissəsində qeyd olunan Dövlət Proqramında nəzərdə tutulmuş tədbirləri əlaqələndirsin və ildə bir dəfə icra barədə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin.

3. Bu Sərəncam 2014-cü il yanvarın 1-dən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 18 dekabr 2013-cü il*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2013-cü il 18 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

## 2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı

### I. Giriş

Naxçıvan Muxtar Respublikasında uğurla həyata keçirilən sosial-iqtisadi inkişaf xətti əhalinin həyat səviyyəsinin yüksəlməsi ilə nəticələnmiş, yeni iş yerlərinin açılması və məşğulluq imkanlarının artırılması üçün əlverişli şərait yaradılmışdır.

Statistik məlumatlara əsasən, son 10 il ərzində muxtar respublikada 58 min 460 yeni iş yeri yaradılmış, iqtisadi fəal əhalinin sayı 24.7%, məşğul əhalinin sayı 30.1 % çoxalmış, əhalinin gəlirləri və orta aylıq əməkhaqqı 9.5 dəfə artmışdır.

Müasir iqtisadi reallıqlar əmək bazarında yeni tələblərin meydana çıxmasını şərtləndirir. Bu səbəbdən əmək ehtiyatlarının əmək bazarına uyğun formalaşdırılması, tələb və təklif arasında tarazlığa nail olunması mühüm əhəmiyyətə malikdir.

Naxçıvan Muxtar Respublikasında əmək bazarının tənzimlənməsi və əhalinin səmərəli məşğulluğunun təmin edilməsi məqsədi ilə hazırlanan proqram bu sahədə sistemli tədbirlərin həyata keçirilməsini təmin edəcəkdir.

### II. Proqramın məqsədi

Proqramın məqsədi aşağıdakılardan ibarətdir:

-muxtar respublikada əhalinin səmərəli məşğulluğunun inkişafına yönəldilən tədbirlərin həyata keçirilməsi;

-əmək bazarında tələb və təklifin real vəziyyətinin qiymətləndirilməsi üçün təhlillərin aparılması;

-peşə hazırlığının əmək bazarının dəyişən tələblərinə uyğunlaşdırılması;

-işaxtaranların, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin edilməsinə köməklik göstərilməsi;

-əlillərin əmək bazarına inteqrasiyasının təmin edilməsi, onların məşğulluq səviyyəsinin artırılması.

### III. Gözlənilən nəticələr

2014-2015-ci illər üçün nəzərdə tutulan tədbirlərin həyata keçirilməsindən aşağıdakı nəticələr gözlənilir:

-işaxtaranların səmərəli məşğulluğu üçün əlverişli şəraitin yaradılması;

-peşə hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması;

-işaxtaran və işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsi.

### IV. Dövlət Proqramının maliyyələşdirilməsi

Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər dövlət büdcəsinin vəsaitləri, o cümlədən qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

## V. Proqramın həyata keçirilməsi üzrə TƏDBİRLƏR PLANI

| № | Tədbirin məzmunu | İcraçı | İcra müddəti |
|---|---|---|---|
| | **1. Muxtar respublikanın əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi üzrə** | | |
| 1.1. | Əmək bazarının təhlil edilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Statistika Komitəsi | İldə bir dəfə |
| 1.2. | Boş iş yerlərinin toplanmasını təmin etmək məqsədi ilə vergi orqanlarında qeydiyyatdan keçmiş fiziki və hüquqi şəxslər haqqında məlumatların Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim edilməsi | Vergilər Nazirliyi | Ayda bir dəfə |
| 1.3. | İşəgötürənlər tərəfindən boş iş yerləri (vakansiya) haqqında hesabatların təqdim edilməsinə nəzarətin gücləndirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Mütəmadi |
| 1.4. | Əmək bazarında müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbatın müəyyənləşdirilməsi məqsədi ilə sorğuların keçirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Rübdə bir dəfə |
| 1.5. | Əmək bazarında əcnəbi işçiyə olan tələbatın müəyyənləşdirilməsi | Dövlət Miqrasiya Xidməti | İldə bir dəfə |
| | **2. Aktiv məşğulluq tədbirləri üzrə** | | |
| 2.1. | İşaxtaran və işsiz şəxslərin məşğulluq xidməti orqanlarında qeydiyyatda olan vakant iş yerlərinə göndərilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Mütəmadi |

*Ardı 2-ci səhifədə*

| | | | |
|---|---|---|---|
| 2.2. | İşaxtaran vətəndaşların müvəqqəti məşğulluğunu təmin etmək məqsədi ilə sosial əhəmiyyətli haqqı ödənilən ictimai işlərin təşkili | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, rayon (şəhər) icra hakimiyyətləri | Mütəmadi |
| 2.3. | Əhalinin məşğulluğunun təmin edilməsi məqsədi ilə əmək yarmarkalarının keçirilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, rayon (şəhər) icra hakimiyyətləri | Mütəmadi |
| 2.4. | Tətil günlərində gəlir əldə etmək istəyən gənclərin mövsümi və haqqı ödənilən ictimai işlərə göndərilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Mütəmadi |
| 2.5. | Kiçik və orta sahibkarlığın inkişafı, həmçinin yeni iş yerlərinin yaradılması məqsədi ilə dövlət maliyyə dəstəyinin davam etdirilməsi | İqtisadi İnkişaf Nazirliyi, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi | Mütəmadi |
| 2.6. | Sahibkarlığa yeni başlamaq istəyən şəxslər üçün müvafiq kursların keçirilməsi, həmçinin məsləhət xidmətlərinin göstərilməsi | İqtisadi İnkişaf Nazirliyi | Mütəmadi |
| | **3. Əmək bazarının tələbinə müvafiq olaraq işaxtaranların peşə hazırlığının təşkili üzrə** | | |
| 3.1. | Əmək bazarının tələbləri nəzərə alınaraq rəqabətqabiliyyətli ixtisaslar üzrə peşə hazırlığının təşkili | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi | Mütəmadi |
| 3.2. | Xidmət sahələrində işləyən işçilər üçün peşə standartlarının tətbiq edilməsi | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi | Mütəmadi |
| 3.3. | Xidmət sahələri üzrə peşəkar kadrların hazırlanması məqsədi ilə kursların təşkili | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Təhsil Nazirliyi | Mütəmadi |
| 3.4. | Əmək bazarının tələbinə uyğun milli və xalq tətbiqi sənəti növləri üzrə peşə kurslarının təşkili | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Təhsil Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | Mütəmadi |
| 3.5. | Muxtar respublikanın əmək bazarına daxil olan əcnəbi işçi qüvvəsinin keyfiyyət tərkibi nəzərə alınaraq, həmin sahələrin tələbatını yerli işçi qüvvəsi hesabına ödəmək məqsədi ilə müvafiq peşə hazırlığı kurslarının təşkili barədə işəgötürənlərin məlumatlandırılması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi | Mütəmadi |
| 3.6. | Ümumtəhsil məktəblərində yuxarı sinif şagirdlərinin peşə seçiminə köməklik məqsədi ilə onlara tədris müddəti ərzində əmək bazarının tələbinə uyğun peşə və ixtisaslar barədə məlumatların verilməsi | Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Mütəmadi |
| | **4. Sosial cəhətdən həssas əhali qruplarının məşğulluğu üzrə** | | |
| 4.1. | Dövlət və özəl müəssisələrdə sosial müdafiəyə xüsusi ehtiyacı olanların (əlillər, əlil uşaqları tərbiyə edən valideynlər, cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslər, şəhid ailələri və sair) və işə düzəlməkdə çətinlik çəkənlərin işlə təmin olunması üçün kvotanın ayrılması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, rayon (şəhər) icra hakimiyyətləri | Mütəmadi |
| 4.2. | Kvota (norma) yerlərinə sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin göndərilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Mütəmadi |
| 4.3. | Aztəminatlı ailələrin, cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin, sosial qayğıya ehtiyacı olan sağlamlıq imkanları məhdud şəxslərin özünüməşğulluqlarının təmin edilməsi məqsədi ilə güzəştli şərtlərlə kiçikhəcmli kreditlərin verilməsi | İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi, Azərbaycan Respublikası Mərkəzi Bankının Naxçıvan Muxtar Respublikası İdarəsi | Mütəmadi |
| 4.4. | Sosial müdafiəyə ehtiyacı olanların, sağlamlıq imkanları məhdud və cəzaçəkmə müəssisələrindən azad edilmiş şəxslərin sosial reabilitasiyası məqsədi ilə peşə kurslarının təşkili | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | Mütəmadi |
| 4.5. | Sağlamlıq imkanları məhdud və ahıl qadınların müvəqqəti məşğulluqlarını təmin etmək məqsədi ilə sosialyönümlü haqqı ödənilən ictimai işlərin təşkili | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Mütəmadi |
| | **5. İşçilərin əmək hüquqlarının təmin edilməsi üzrə** | | |
| 5.1. | Qeyri-formal məşğulluğun qarşısının alınması, işə götürülən şəxslərlə əmək müqavilələrinin bağlanması, onlara verilən əməkhaqlarının reallığı əks etdirməsi məqsədi ilə tədbirlərin görülməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Vergilər Nazirliyi, Dövlət Sosial Müdafiə Fondu, Dövlət Statistika Komitəsi | Mütəmadi |
| 5.2. | İşəgötürənlər tərəfindən işçilər üçün müvafiq əmək şəraitinin yaradılmasına, istehsal müəssisələrində işçilərin əməyin mühafizəsi qaydalarına riayət etməsinə nəzarət olunması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Naxçıvan Muxtar Respublikasının Prokurorluğu | Mütəmadi |
| 5.3. | İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta müqavilələrinin bağlanmasına nəzarətin artırılması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Baş Sığorta Agentliyi | Mütəmadi |
| 5.4. | Çalışdıqları iş yerlərində əməkçi miqrantların müvafiq statusa və fərdi icazələrə malik olmalarının araşdırılması, onların əmək fəaliyyətlərinin qanuniliyinə nəzarət edilməsi | Dövlət Miqrasiya Xidməti | Mütəmadi |
| | **6. İşaxtaranların təşkil olunacaq peşə kursları, ictimai işlər, habelə vakansiyalar barədə məlumatlandırılması** | | |
| 6.1. | Əmək bazarının tələblərinə uyğun təşkil olunan peşə kursları, ictimai işlər, habelə vakansiyalar barədə məlumatların işaxtaranlara çatdırılması üçün internet saytının yaradılması | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2014-cü ilin birinci yarısı |
| 6.2. | İşaxtaranların təşkil olunacaq peşə kurslarına təşviq edilməsi məqsədi ilə kütləvi informasiya vasitələrində elanların verilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Mütəmadi |
| 6.3. | İşəgötürənlərin həvəsləndirilməsi məqsədi ilə "Ən fəal işəgötürən" nominasiyası üzrə müsabiqənin keçirilməsi və qaliblərin mükafatlandırılması | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Sahibkarlar Konfederasiyası | Mütəmadi |
| 6.4. | Muxtar respublikanın kütləvi informasiya vasitələrində məşğulluq sahəsində görülmüş işlərə dair məlumatların verilməsi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Televiziya və Radio Verilişləri Komitəsi, "Şərq qapısı" və rayon (şəhər) qəzetləri | Mütəmadi |

# Standartların tələbləri və tətbiqinə ciddi diqqət yetirilir

***Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsindən aldığımız məlumata görə, 2013-cü ilin 11 ayı ərzində təhsil müəssisələrində qidalanmaya dair tələblərlə bağlı 732 təsərrüfat subyektinə standartların tələbləri barədə maarifləndirici məktublar göndərilib.***

Ticarət obyektlərindən 149175,36 manat dəyərində standartın tələblərinə uyğun olmayan, yararlılıq müddəti bitmiş məhsul aşkar edilərək satışının qarşısı alınıb. İdxal olunan malların etiketlərində və adlarında istehlakçılar üçün nəzərdə tutulmuş Azərbaycan dilində zəruri məlumatların olmasına nəzarət edilməsi, geni dəyişdirilmiş və ya genetik modifikasiya olunmuş məhsulların, eləcə də süni ət məhsullarının muxtar respublikaya idxalının və satışının qarşısının alınması üçün 14 topdansatış obyektinin rəhbərinin iştirakı ilə maarifləndirici tədbir keçirilib.

Bundan başqa, süni ət məhsullarının muxtar respublikaya idxalının və satışının qarşısının alınması barədə verilmiş tapşırığın icrası ilə bağlı aparılan araşdırmalar zamanı 21 adda süni qida məhsulları aşkar edilib. İdxal olunan 61,8 kq (361 manat dəyərində) "Halal" adı ilə markalanmış saxta əmtəə nişanlı ət məhsullarının satışına qadağa qoyulub. 109 təsərrüfat subyektinə özünəməxsus əmtəə (xidmət) nişanının qeydiyyata alınması barədə məlumat xarakterli məktub göndərilib.

Məlumatda o da bildirilib ki, məktəbli, tələbə və müəllim geyim formalarının keyfiyyət göstəricilərinin müasir standartlara uyğunlaşdırılmasına nəzarətin artırılması barədə verilmiş tapşırığın icrasını təmin etmək məqsədilə 6 tikiş məmulatları istehsalı sexinin və 8 dərzi sexi rəhbərlərinin iştirakı ilə komitədə maarifləndirici yığıncaq keçirilib, 1 müəssisədə istehsal olunan 220 ədəd məktəbli və tələbə formalarının köməkçi materiallarının uyğunluq sertifikatı və sınaq protokolları olmadığından həmin formaların satışına qadağa qoyulub.

Təhsil və məktəbəqədər təhsil müəssisələrindəki yeməkxanalara alınan ərzaq məhsullarının keyfiyyətinə, onların yerli məhsullar olmasına nəzarətin artırılması barədə verilmiş tapşırığın icrasını təmin etmək məqsədilə aidiyyəti nazirliklərin müvafiq qurumları ilə birlikdə 57 təhsil müəssisəsində araşdırmalar aparılıb. 20 təhsil müəssisəsində hazırlanmış yeməklərdən seçilmiş nümunələrin laboratoriya analizləri zamanı standartın tələblərinə uyğun olduğu və həmin müəssisələrdə yerli məhsullara üstünlük verildiyi müəyyən olunub. Təhsil müəssisələrində təhsil və tərbiyə alanların qidalanması üzrə dövlət standartının tətbiqi ilə əlaqədar aidiyyəti təşkilatlarla birgə tədbir keçirilib, 50 tam orta məktəbin və 1 musiqi kollecinin bufetlərində məlumatlandırma aparılıb, 14 uşaq bağçası, 1 internat məktəbi, 4 lisey və 1 peşə liseyində fəaliyyət göstərən bufet və yeməkxana işçiləri standartın tələbləri barədə maarifləndiriliblər.

✍ **Səbuhi HÜSEYNOV**

# Şahbuzda quruculuq tədbirləri cari ildə daha da genişləndirilib

***Şahbuz rayonu belə tədbirlər hesabına müasir rayona çevrilib. Əvvəlcə onu qeyd edək ki, cari ilin ötən dövrü ərzində rayon mərkəzi Şahbuz şəhərində Yeni Azərbaycan Partiyasının rayon təşkilatı üçün inzibati bina, rayonun ucqar kənd yaşayış məntəqələri olan Kükü və Ağbulaq kəndlərində yeni sosial obyektlər istifadəyə verilib.***

Bu yaxınlarda isə Ayrınc kəndində ikimərtəbəli kənd mərkəzi və xidmət mərkəzi qapılarını ayrınclıların üzünə açıb, kənd məktəbi yenidən qurulub.

Qızıl Qışlaq və Güney Qışlaq kəndləri də kompleks quruculuq tədbirləri hesabına müasir yaşayış məntəqəsinə çevrilib.

Qızıl Qışlaqda həyata vəsiqə alan binalardan biri kənd tam orta məktəbinin binasıdır. 110 şagird yerlik məktəb binası zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarətdir. Yeni binanın maddi-texniki bazası gücləndirilib, təhsilin səviyyəsini yüksəltmək üçün imkanlar genişləndirilib. Məktəb binasının yaxınlığında istifadəyə verilən kənd mərkəzi iki mərtəbədən ibarətdir. Burada kəndin müxtəlif qurumlarının fəaliyyəti üçün nümunəvi şərait yaradılıb. Ucqar dağ kəndinin sakinlərinə daha bir dövlət qayğısı isə bu yaşayış məntəqəsində xidmət mərkəzinin istifadəyə verilməsidir. Xidmət mərkəzində mağaza və müxtəlif xidmət sahələri yaradılıb.

Quruculuq tədbirləri Güney Qışlaq kəndini də əhatə edib. Bu yaşayış məntəqəsində iki mərtəbədən ibarət kənd mərkəzi və birmərtəbəli xidmət mərkəzi istifadəyə verilib. Hər iki kənddə müxtəliftəyinatlı quruculuq tədbirlərini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şahbuz Rayon İdarəsinin inşaatçıları həyata keçiriblər.

Sələsüz kəndində məktəb binası əsaslı təmir edilib, kənd və xidmət mərkəzləri, həkim ambulatoriyası təhvilə hazırlanır.

**Xəbərlər şöbəsi**

# Naxçıvan
# dünyanın ən təhlükəsiz regionlarından biridir

***Ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının, insanların həyat və sağlamlıqlarının qorunması, qanunvericiliklə nəzərdə tutulmuş hüquqi mənafelərinin cinayətkar qəsdlərdən müdafiəsi sahəsində daxili işlər orqanları qarşısında mühüm vəzifələr durur. Bu məqsədlə həyata keçirilmiş tədbirlər zamanı daxili işlər orqanlarının hər bir əməkdaşından şəffaf fəaliyyət, dövlətə və dövlətçiliyə, xidməti vəzifə borcuna sədaqət, Vətənə məhəbbət, düzlük, prinsipiallıq tələb edilmiş, onlara fədakarlıq və cəsarətlilik, bir çox mənəvi-psixoloji, işgüzar və peşəkar keyfiyyətlər aşılanmışdır. Bunun müqabilində muxtar respublika daxili işlər orqanlarının əməkdaşları 2013-cü ildə cinayətkarlığa qarşı mübarizədə və ictimai təhlükəsizliyin təmini sahəsində qətiyyətli addımlar atmış, xidməti vəzifələrini layiqincə yerinə yetirmişlər.***

Cinayətlərin qarşısının alınması və açılması, ictimai asayişin təmini sahəsində əvvəlki illərin müsbət nəticələri inkişaf etdirilmiş, insan hüquq və azadlıqlarının qorunması sahəsində görülən işlər daha da təkmilləşdirilmişdir.

Daxili işlər orqanlarının əməkdaşları əhali arasında aparılan hüquqi-maarifləndirmə tədbirlərinə daha çox üstünlük vermişlər. İnsan və vətəndaş hüquq və azadlıqlarının qorunması, cinayətkarlığa qarşı mübarizə, ictimai asayişin və ictimai təhlükəsizliyin təmini sahəsində qarşıya qoyulan vəzifələr, əməliyyat xidməti fəaliyyətinin təkmilləşdirilməsi ilə bağlı tələb və tapşırıqlar tam həcmdə yerinə yetirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi diqqət və qayğısı sayəsində sahəvi xidmətlərin, orqan və hissələrin yeni informasiya texnologiyaları ilə təmin olunması, şəxsi heyətin sosial müdafiəsinin və iş şəraitinin daha da yaxşılaşdırılması istiqamətində tədbirlər cari ildə də davam etdirilmişdir.

Cinayətlərin profilaktikası, əhalinin hüquqi maarifləndirilməsi və polisin fəaliyyətində şəffaflığın təmin edilməsi xüsusi plan əsasında həyata keçirilmişdir. Aparılmış profilaktik tədbirlərin nəticəsidir ki, vətəndaşların həyatı, sağlamlığı və əmlakı cinayətkar qəsdlərdən qorunmuş, onların təhlükəsizliyi yüksək səviyyədə təmin edilmiş, muxtar respublika ərazisində cinayətkarlığa qarşı mübarizədə və ictimai təhlükəsizliyin qorunmasında nailiyyətlər əldə olunmuşdur.

Həyata keçirilən bu kimi tədbirlər muxtar respublikada cinayətkarlığın dinamikasına müsbət təsir göstərmiş, Naxçıvanı dünyanın ən təhlükəsiz regionlarından birinə çevirmişdir.

Cinayətkarlığa və hüquq pozuntularına qarşı barışmaz mübarizə aparılmış, nəticə etibarilə, cinayətlərin sayı son 2 ildə minimum səviyyəyə endirilmişdir. Son 10 ildən artıq bir dövrdə cinayətkarlığın transmilli mütəşəkkil növləri üzrə heç bir cinayət qeydə alınmamış, terrorçuluq, banditizm, adamları girovgötürmə və bu kimi xüsusilə ağır cinayətlər baş verməmişdir. Bunun nəticəsidir ki, muxtar respublika tarixində ən az cinayət 2013-cü ildə qeydə alınmışdır. Bütün hadisələrin açılması isə tam təmin edilmişdir.

Statistik rəqəmlərə nəzər salsaq, görərik ki, 1992-ci ildə Naxçıvanda 684 cinayət hadisəsi qeydə alınmışdırsa, 2013-cü ildə bu rəqəm 16 olmuşdur. Həmin illərdə törədilmiş cinayətləri əhalinin sayına görə müqayisə etsək, görərik ki, 1992-ci ildə əhalinin 100 min nəfərinə 216 cinayət düşürdüsə, 2013-cü ildə qeydə alınmış cinayətlərin sayına görə 100 min nəfərə cəmi 4 cinayət hadisəsi düşür. 1992-ci ildə 9 quldurluq və soyğunçuluq, 9 qəsdən adamöldürmə, narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsi ilə bağlı 28, xüsusi və dövlət əmlakının oğurlanması ilə bağlı 103, nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması ilə bağlı 30 (20-si ölümlə nəticələnib), 1993-cü ildə 16 quldurluq və soyğunçuluq, 18 qəsdən adamöldürmə, narkotik maddələrin qanunsuz dövriyyəsi ilə bağlı 46, xüsusi və dövlət əmlakının oğurluğu ilə bağlı 149, yol-nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması ilə bağlı 38 (23-ü ölümlə nəticələnib), 1994-cü ildə 3 quldurluq və soyğunçuluq, 17 qəsdən adamöldürmə, narkotik maddələrin qanunsuz dövriyyəsi ilə bağlı 104, xüsusi və dövlət əmlakının oğurluğu ilə bağlı 130, yol-nəqliyyat vasitələrinin istismarı qaydalarının pozulması ilə bağlı 46 (22-si ölümlə nəticələnib) cinayət hadisəsi törədilmişdir. 1992-ci ildə 684, 1993-cü ildə 640 və 1994-cü ildə 773 cinayət hadisəsi qeydə alınmışdır ki, həmin cinayətlərin əksəriyyəti qəsdən törədilən ağır cinayətlər olmuşdur.

Burada bir daha nəzərə çatdırmaq istərdik ki, həmin illərdə muxtar respublikada əhalinin sayı indikindən xeyli az idi. Həmçinin avtonəqliyyatın sayı 10 mindən az olmuş, ancaq hadisələrin və ölümlərin sayı yüksək olmuşdur. Artıq muxtar respublikada 40 minə yaxın nəqliyyat vasitəsi var. Lakin hadisələrin və ölümlərin sayı o illərdən dəfələrlə aşağıdır.

Məlum olduğu kimi, Azərbaycan ikinci dəfə öz müstəqilliyini qazandıqdan sonra ölkə çox böyük problemlərlə üzləşmişdir. Bir tərəfdən Ermənistanın Azərbaycana ərazi iddiası, qaçqın problemi, digər tərəfdən o zamankı iqtidar dövründə ayrı-ayrı siyasi partiyalara məxsus silahlı dəstələrin hakimiyyət davası kriminogen duruma öz mənfi təsirini göstərmişdir. Azərbaycan xalqının təkidli tələbi ilə ümummilli lider Heydər Əliyevin yenidən ali hakimiyyətə qayıdışından sonra sabitliyin ölkədə bərqərar olunması birbaşa kriminogen duruma müsbət təsir etmişdir.

Ölkədə aparılan islahatlar, quruculuq işləri daxili işlər orqanlarının fəaliyyətinə bilavasitə müsbət təsir göstərmişdir. Rəqəmlərdən göründüyü kimi, Naxçıvanda daha uğurlu addımlar atılmış və cinayətkarlığa qarşı mübarizədə uğurlu nəticələr əldə olunmuşdur.

2013-cü ildə törədilmiş cinayət hadisələrinin 1992-ci ildə törədilmiş cinayət hadisələri ilə müqayisəsi göstərir ki, törədilmiş cinayətlər 668 fakt, yəni 97,7 faiz, ictimai təhlükəlilik dərəcəsinə görə isə ağır və xüsusilə ağır cinayətlər 88,6 faiz azalmışdır. Yetkinlik yaşına çatmayanlar və yeniyetmələr tərəfindən 1992-ci ildə 17, 1993-cü ildə 40 cinayət hadisəsinin törədildiyi qeydə alındığı halda, son beş ildə, ümumiyyətlə, yetkinlik yaşına çatmayanlar və yeniyetmələr tərəfindən cinayət hadisəsinin törədilməsi halları qeydə alınmamışdır.

Keçmiş illərdə törədilən cinayətlərin törədilmə üsullarına nəzər saldıqda görürük ki, 1993-cü ildə odlu silahla 49, 1994-cü ildə 50 cinayət hadisəsi törədilmişdir. Lakin son on ildə bu tip cinayət, ümumiyyətlə, qeydə alınmamışdır. Bəhs olunan illərdə törədilən cinayətlərin əksəriyyətini odlu silahla törədilən cinayətlər təşkil etdiyindən bu istiqamətdə tədbirlər daha da gücləndirilmişdir. Aparılmış profilaktik tədbirlərin və əhalinin hüquqi maarifləndirilməsinin nəticəsidir ki, qanunsuz saxlanılan 6570 ədəddən çox silah, çoxlu sayda döyüş sursatı və hərbi ləvazimat yığılmışdır.

Əhalinin hüquqi maarifləndirilməsi, sosial-məişət şəraitinin yaxşılaşdırılması, həyat səviyyəsinin yüksəldilməsi cinayət məsuliyyətinə cəlb olunanlarla yanaşı, inzibati məsuliyyətə cəlbolunma hallarının da azalmasına səbəb olmuşdur. Belə ki, 2003-cü ildə yalnız sahə inspektorları tərəfindən 4782 nəfərin inzibati məsuliyyətə cəlb olunması ilə bağlı protokol tərtib edilmişdirsə, 2013-cü il ərzində bu rəqəm 180 olmuşdur. Statistik rəqəmlərdən göründüyü kimi, inzibati məsuliyyətə cəlbolunma hallarının azalmasında, əsasən, vətəndaşların hüquq və vəzifələrinin hüquq-mühafizə orqanları tərəfindən daha etibarlı müdafiəsi, əhalinin məşğulluğunun artırılması kimi amillər rol oynamışdır.



*Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin inzibati binası*

Muxtar respublikamızda cinayətlərin sayının ilbəil azalmasının əsas səbəblərindən biri də genişmiqyaslı quruculuq, abadlıq işlərinin həyata keçirilməsi, əhalinin məişət şəraitinin yaxşılaşdırılması, yeniyetmələrin və gənclərin asudə vaxtının səmərəli təşkili və ən əsası əhali arasında hüquqi maarifləndirmə işinin aparılması olmuşdur.

Bu gün tam əminliklə demək olar ki, muxtar respublikamız nəinki MDB, hətta Şərqi Avropa ölkələri ilə müqayisədə cinayətkarlığın azalmasına görə liderdir.

Hesab etmək olar ki, Naxçıvan 2013-cü ili cinayətsiz başa vurur. Bunu cinayətlərin strukturundakı dəyişikliklərə əsaslanmaqla tam əminliklə demək olar. Cinayətlərin azalmasına təsir edən digər əsas amillər muxtar respublikada aparılan islahatlar və xalqla dövlət arasındakı bağlılıqdan ibarətdir.

Muxtar respublika rəhbərinin tələb və tövsiyələrinə ciddi əməl olunaraq hüquqazidd əməllərin qarşısının alınmasında, asayişin mühafizəsində şəxsi heyətin intellektual hazırlığı, əhalinin hüquqi maarifləndirilməsi, əməliyyat xidməti fəaliyyətinin bütün sahələrində profilaktik tədbirlərin genişləndirilməsi və bu məqsədlə kütləvi informasiya vasitələri ilə əlaqələrin gücləndirilməsi ön plana çəkilərək zəruri tədbirlər həyata keçirilmişdir.

Məlum olduğu kimi, polis informasiya ilə işləyən, cəmiyyətə mütəmadi hesabat verən, təhlükəsizliyi və insan hüquqlarının qorunmasını təmin edən, xalqına sədaqətlə xidmət göstərən dövlət qurumudur. Məhz öz vəzifələrinin öhdəsindən layiqincə gəlmək üçün polis, ilk növbədə, əhalinin etibarını və inamını qazanmalıdır. Bu məqsədlə əhali ilə mütəmadi görüşlər keçirir, polis və vətəndaş cəmiyyətinin kompakt əlaqələri genişləndirilməklə əhalinin inam və etibarını qazanmağa çalışırıq.

Muxtar respublikada əhalinin məşğulluğunun artırılması, istər iqtisadi, istərsə də aqrar sahələrdə aparılan islahatlar, uşaqlara və gənclərə göstərilən dövlət qayğısı və digər bu kimi tədbirlər də cinayətlərin sayının azalmasında mühüm rol oynamışdır.

Naxçıvanda aparılan quruculuq işləri digər sahələrlə yanaşı, polis orqanlarını da əhatə etmişdir. Naxçıvan Muxtar Respublikası daxili işlər orqanlarının maddi-texniki bazasının ən müasir səviyyəyə çatdırılması istiqamətində lazımi tədbirlər həyata keçirilmiş və bu istiqamətdə tədbirlər davam etdirilir. Hər bir əməkdaş yaradılmış maddi-texniki bazanın qorunub saxlanılması üçün səy göstərir.

Son illər yerli polis orqanlarının inzibati binaları yenidən tikilərək müasir tələblər səviyyəsində istifadəyə verilmiş, ərazilərdə polis sahə məntəqələrinin əksəriyyəti yenilənmişdir. Bütün bunlarla yanaşı, köhnə nəqliyyat vasitələrinin yeniləri ilə əvəzlənməsi, polis sahə inspektorlarının nəqliyyat vasitələri ilə, eləcə də şəxsi heyətin mövsümi geyim formaları ilə təmin olunması işi davam etdirilir.

Daxili işlər orqanlarında xidmət edən əməkdaşların maddi-rifah halının yaxşılaşdırılmasına böyük dövlət qayğısı göstərilir. Ölkə Prezidenti tərəfindən 2013-cü ilin sentyabr ayında daxili işlər orqanları əməkdaşlarının vəzifə maaşlarının artırılması buna bariz nümunədir. Bundan başqa, əməkdaşların məişət-sosial problemlərinin həlli də dövlət qayğısından kənarda qalmamışdır. Bu baxımdan Daxili Qoşunların Naxçıvan Alayında xidmət edən zabit və gizirlərin ailələrinin mənzil-yaşayış fondunun yaxşılaşdırılması məqsədilə dövlət proqramı çərçivəsində 5 mərtəbədən, 60 mənzildən ibarət, lazım olan avadanlıqlarla tam təchiz olunmuş yeni yaşayış binası tikilmişdir. Bundan əlavə, 5 mərtəbə, 45 mənzildən ibarət yeni yaşayış binası və hərbi qulluqçuların istifadəsində olan 2 mərtəbədən, 8 mənzildən ibarət yaşayış binası yenidən 1 mərtəbə də əlavə olunmaqla əsaslı təmir olunur və yaxın zamanlarda istifadəyə veriləcəkdir. Eləcə də son illər bir çox polis əməkdaşı mənzillərlə təmin edilmişdir.

İctimai qaydanın və ictimai təhlükəsizliyin təmini, insan və vətəndaş hüquq və azadlıqlarının daha etibarlı qorunması məqsədilə ərazilərdə yeni, müasir polis bölmələri yaradılmışdır. Həmin bölmələr Naxçıvan şəhəri ərazisində yerləşən 1 nömrəli, Babək rayonu ərazisində yerləşən Cəhri, Şərur rayonu ərazisində yerləşən İbadullah, Ordubad rayonu ərazisindəki Biləv və Culfa rayonu ərazisindəki Əlincə Polis bölmələridir ki, həmin polis bölmələri hər cür avadanlıqlarla təchiz edilmişdir.

Muxtar respublikada cinayətlərin baş vermədən qarşısının alınması məqsədilə əhalinin hüquqi maarifləndirilməsi, profilaktik tədbirlərin real təşkili üzrə həyata keçirilən tədbirlər, muxtar respublika rəhbərinin qarşıya qoyduğu "Cinayətsiz region" prinsipinə sədaqətlə və əzmkarcasına əməl olunması Naxçıvanı ölkəmizin ən stabil bölgələrindən birinə çevirmişdir. Həyata keçirilən tədbirlər muxtar respublikanı dünyanın ən inkişaf etmiş bölgələri ilə müqayisə etməyə və burada bir sıra mühüm əhəmiyyətli dövlət tədbirlərinin keçirilməsinə imkan verir.

2013-cü il muxtar respublika daxili işlər orqanları üçün uğurlu olmuş və bu müsbət ənənənin gələcəkdə də davam etdirilməsi üçün zəmin yaranmışdır. Bütün bunlara əsaslanaraq muxtar respublika sakinlərini əmin edirik ki, Naxçıvan polisi cinayətkarlığa qarşı mübarizədə, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsində, vətəndaşların hüquq və azadlıqlarının daha etibarlı müdafiə olunması sahəsində qarşıya qoyulan vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcəkdir.

Bu gün öz işini qanunun aliliyi, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi prinsipləri üzərində quran Daxili İşlər Nazirliyi Avropa standartlarını, inkişaf etmiş dövlətlərin hüquq-mühafizə orqanlarının qabaqcıl təcrübəsini nəzərə alaraq islahatları davam etdirir.

Yanvar ayının 18-də qeyd edəcəyimiz Naxçıvan polisinin bayramına, Naxçıvan polisinin yaranmasının 90-cı ildönümünə şərəflə və qürurla yaxınlaşırıq.

1995-ci ildən Naxçıvanda kriminogen durum köklü surətdə müsbətə doğru dəyişmişdir.

**Ümummilli liderimiz Heydər Əliyev 2003-cü il iyulun 1-də daxili işlər orqanlarının şəxsi heyətinə müraciətində demişdir: "Dövlətimizin güclənməsi, demokratiyanın inkişafı, qanunun aliliyinin təmin edilməsi sahəsində biz əldə olunmuş nailiyyətlərlə kifayətlənməməliyik". Bu tövsiyəyə uyğun olaraq, böyük çətinliklər və gərgin əmək hesabına qazanılmış uğurları Naxçıvan polisi bundan sonra da əldən verməyəcək, əksinə, onu qoruyub daha da inkişaf etdirmək üçün var-qüvvəsi ilə çalışacaqdır. Heydər Əliyev ideyalarına sadiq olan Naxçıvan polisi asayişin keşiyində həmişə ayıq-sayıq dayanacaqdır.**

**Əli TAĞIYEV**
*Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin*
*Təşkilat-İnspeksiya İdarəsinin rəisi, polis polkovniki*

# Muzeydə açıq dərs keçilib

***Naxçıvan şəhərindəki "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyində "Naxçıvan xanlığı və onun Azərbaycan tarixində yeri" mövzusunda açıq dərs keçilmişdir. Açıq dərsdə Naxçıvan şəhər 6 nömrəli tam orta məktəbin şagirdləri iştirak etmişlər.***

Açıq dərsdə məktəbin direktoru Hökumə Mahmudova, tarix müəllimi Səidə Əkbərova şagirdlərə Naxçıvan xanlığı haqqında ətraflı məlumat vermişlər. Qeyd edilmişdir ki, Azərbaycan ərazisində 1747-ci ildən yaranmış 18 feodal dövlətdən biri olan Naxçıvan xanlığı milli dövlətçilik tariximizdə mühüm mərhələ təşkil etmiş, bölgənin inkişafında, müdafiə qabiliyyətinin gücləndirilməsində, sərhədlərin qorunub saxlanılmasında və inzibati idarəçiliyin formalaşmasında vacib tarixi missiyanı yerinə yetirmişdir. İnzibati ərazi baxımından 2 dairədən və 9 mahaldan ibarət olan Naxçıvan xanlığı Zəngəzur dağlarından başlayaraq Araz çayı vadisinə qədər 9429 kvadratkilometr ərazini əhatə edirdi.

Öz ərazisi, qoşunu, dövlət rəmzləri – bayrağı və gerbi olan Naxçıvan xanlığında bitkin idarəçilik mexanizmləri formalaşmış, iqtisadiyyatın əsas sahələri inkişaf etmiş, geniş abadlıq-quruculuq işləri aparılmışdı. Bu xanlıqda Heydərqulu xan, Nəzərəli xan, Kərim xan, Ehsan xan kimi nüfuzlu dövlət və hərb xadimləri yetişmiş, 30 il Naxçıvan xanlığının rəhbəri olan Kalbalı xan mahir dövlət xadimi və diplomat kimi tarixə düşmüşdür.



Bildirilmişdir ki, Azərbaycan milli dövlətçilik tarixində Naxçıvan xanlığının tutduğu xüsusi mövqeyini nəzərə alaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 23 oktyabr 2010-cu ildə "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin yaradılması haqqında Sərəncam imzalamışdır.

Açıq dərsdə muzeyin direktoru Nəzakət Əsədova şagirdlərə muzey haqqında ətraflı məlumat verərək bildirmişdir ki, XVIII əsrin ortalarında Kalbalı xan Kəngərli tərəfindən tikdirildiyi bildirilən tarixi binada fəaliyyətə başlayan muzeyin birinci mərtəbəsində iş otaqları, elmi fond və digər yardımçı sahələr, ikinci və üçüncü mərtəbələrində isə 10 salondan ibarət ekspozisiya – sərgi zalları vardır. Muzeydəki 300-ə yaxın eksponatın 210 ədədi ekspozisiyada nümayiş olunur. Muzeylə ilk tanışlıq ekspozisiyanın giriş salonundan başlayır. Ekspozisiya yalnız arxiv materialları və tədqiqat mənbələri ilə deyil, həm də xanlıqlar dövrünə aid qiymətli sənət nümunələri, məişət və etnoqrafik mənbələrlə, yerli rəssamlarımızın yaratdıqları əsərlərlə də zəngindir. Qiymətli eksponatlar Azərbaycanın, o cümlədən qədim Naxçıvan əhalisinin mədəniyyətinin, məişətinin dil açıb danışan tarixi həqiqətlərindən xəbər verir. Muzeydə açıq dərslərin, elmi müzakirələrin, elmi simpoziumların təşkili muzeyin tanıdılmasına xidmət edir.

Sonra şagirdlər "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyindəki eksponatlarla tanış olmuşlar.

**S.HÜSEYNOV**

# Çillələrin möcüzəli bitkiləri

*Xalq təqviminə görə, qış fəslinin ilk günü çillələrin başlandığı gün hesab olunur. Etnoqrafik materiallardan aydın olur ki, çillələr xüsusiyyətlərinə görə üç yerə bölünür: böyük çillə, kiçik çillə və ala çillə. Bugünkü yazımızda çillələrin möcüzəli bitkilərindən danışacağıq.*

***Motmotu*** – Daşdələn fəsiləsindən olub, 1-1,5 metr ucalığında quraqlığa, şaxtaya dözümlü, tikanlı qol-budaqları olan kol bitkisidir. 40-50 metr kənardan insanı valeh edən ətri duyulur. Möcüzəsi ondadır ki, arıçılıqda yüksək baltutarlığı, meyvələrinin zəngin tərkibi ilə yanaşı, qışın ən sərt çillələrində də meyvələrini budaqlarında muncuq kimi saxlaya bilir. O qədər ləzzətli dada, tama malik olur ki, meyvələrini yeyəndə, deyirsən bəs, bir ayrı dadda kişmişdir. Ordubadın Bist kəndində yaşı 40-dan çox olan, ucalığı 4 metrə çatan motmotuya da rast gəlmişəm. Pöhrə qələmləri və yan kökləri ilə vegetativ üsulla artırılır. Meyvələrinin mürəbbə və kompotu çox ətirlidir. Əgər moruq, böyürtkən, qara və qırmızı qarağat meyvələri yetişəndən sonra dözüm göstərə bilmirsə, budaqlarda quruyursa, motmotu meyvələri şaxtadan da qorxmur. Avqustdan fevral-mart aylarınadək budaqlarda göz oxşayır. Meyvələrinin tərkibində 14 faizədək şəkərlər, 2 faizədək sərbəst turşular (alma, limon, kəhrəba turşuları), C vitamini, pektin maddələri, efir birləşmələri, fosfor, dəmir, mis, kalium, maqnezium, natrium vardır. Respublikamızda motmotudan mürəbbə, jele, püre, kompot, hətta marmelad hazırlanır. Rütubət sevən, torpağa az tələbkar olan bu bitki tirimli-daşlı dərə boyu vadilərdə bitdiyi üçün bəzən "daşdələn" də adlandırılır. Köklərinin zirinc kökü ilə qarışıq dəmləməsi öd kisəsi, böyrək daşlarını asanlıqla əzir. Əkilən pöhrələr 3-4 ildən sonra artıq formalaşan kollara çevrilir. Kök sistemi 40 santimetrdən artıq dərinə getmir, yanlara yayılır. Odur ki, motmotu bitkisinin kök ətrafına üzvi çürüntülərin verilməsi məhsulu xeyli artırır.

Dünya təcrübəsinə görə, bütün meyvə bitkilərinə azot, fosfor, kalium gübrələri verilir. Öz təcrübəmə əsasən deyə bilərəm ki, Naxçıvan torpağının bütün növdə olan tumlu, çəyirdəkli giləmeyvələri torpağın öz təbii gücü və müstəsna hallarda yanmış, çürümüş üzvi gübrə ilə qidalandığı üçün bu meyvələrin təbii dad-tamı ilə rəqabətə girəcək meyvələrə rast gəlməmişəm. Motmotu kollarını üzvi gübrələrlə qidalandırmaq daha məsləhətdir. Suyu bol olduqda meyvələri də iri olur.

***Yerə yatan ardıc.*** Payızın son günlərində armud, alma, nar bitkilərində tək-tük meyvə gördükdə sevinirik. Çoxlarımızın xəbəri yoxdur ki, Naxçıvan torpağındakı meşə və kolluqlarda, tirimli daşlarda ardıcın yerə yatan növü bitir. Bu təbiət möcüzəsi bitki qışın oğlan çağında çiçək açır. Təəccüblü olsa da, elə həmin budaqlarda keçən ilin kal yaşıl meyvələri (gilənar dənəsi irilikdə) və inişilin yetkinləşən qonur meyvələri olur. Qafqazın bu nadir töhfəsi budaqlarında eyni vaxtda üç ilin barını – builki və keçənilki kal, həmçinin inişilki yetkin meyvələri saxlayır. Həmin qonur meyvələrdən şirniyyat sənayesində ətirli şokolad, şərab sənayesində likör içki növünün hazırlanmasında istifadə olunur. Xalq təbabətində isə meyvə və köklərinin dəmləməsi böyrəkdaşı xəstəliklərində istifadə edilir. Tikanlı yarpaqlarının dəmləməsi revmatizmdə sınanmış müalicəvi xüsusiyyətə malikdir.

***Qara istiot.*** Kol bitkisidir. Əsl vətəni Hindistan olsa da, Avropaya da yayılmışdır. Şahbuzda öz həyətyanı sahəmdə qara istiotu bara salmışam. Budaqlarının qurtaracağı üstü qara meyvələrlə dolu süpürgə kimi görünür. Yarpaqları da meyvələri kimi ətirlidir. Kəskin efirə, yandırıcı maddələrə malik olduğundan bu yaydan gələn yayadək budaqlardakı meyvələrə quşlar yaxın düşə bilmir. Qurudulan meyvələri həvəngdəstədə döyülüb ağzıbağlı dəmir qablarda (qaranlıqda) saxlanılır. Qiymətli ədviyyatdır. İştahaartırıcı, həzm prosesinə kömək edən, həm də bakterisid təsirə malik bitkidir. Şahbuz rayonunda qara istiotu külüslü Hacı Müslüm baba haradansa gətirib şəxsi bağında vaxtilə necə bara salmışdırsa, oradan da qonşu Şahbuzkəndə yayılmışdır. Son 5 ildə bara saldığım qara istiotu Şahbuzkənddən olan Sultan müəllim köklü pöhrəsi kimi mənə bağışlamışdı.

***Zirinc.*** Naxçıvan torpağında ağ və qırmızırəngli meyvələri ilə tanınan adi zirinc 2-3 metr hündürlüyündə qol-budaqlı kol bitkisidir. Hətta aran torpaqlarına da uyğunlaşır. Çiçəkləmə dövrü yağıntı çox olmasa, əlverişli şəraitdə salxım-salxım bar gətirir. Sıx yarpaqlaması may ayına təsadüf edir. Ta qədimdən dağ kəndlərində çaşır turşusunun küpələrinə zirinc yarpaqları da qoyarlar. Belə şoraba xüsusi ətrə malik olub, çaşırı elə saxlayır ki, qışın çillələrində süfrəyə gətiriləndə, deyirsən bəs, çaşır təzəcə pörtlədilib, yumşaqdır. Zirincin cavan kökləri böyrəkdaşı xəstəliklərində kara gəlir. Meyvələri isə möcüzədir. Turşusu qan təzyiqinin əlacıdır. Yüksək təzyiqi tezliklə normaya endirir. Budaqlarının qabığı da dərmandır, yarpaqlarının spirtli ekstraktı tibdə daxili qanaxmalarda işlədilir. Nə qədər şaxtalı havalar olsa da, zirinc kolları öz budaqlarındakı qızılı salxımlarla göz oxşayır. Xalq təbabətində zirinc qurusu, solmazçiçəyi, üçyarpaq yonca, nanə yarpağı və keşniş toxumu ilə ödqovucu çay dəmləməsi hazırlanır və öd durğunluğunda çay kimi içilir.

Naxçıvan mətbəxinin küftə və kələm dolması kimi dadlı-tamlı xörəklərini zirincsiz təsəvvür etmək olmaz. Qanazlığı, raxit, sinqa (diş diblərində qanaxma) xəstəliklərində zirincin təzə yarpaqları, yetkin və qurudulmuş meyvələri, şirə və kompotu, mürəbbəsi olduqca faydalıdır. Bəzən elə təbiət qənimləri, nankor brakonyerlər olur ki, xəlvəti olaraq 30-40 ilə formalaşmış zirincin dolu budaqlarını kəsərək meyvələrini evdə arıtlayırlar. Bir müəllimimiz var idi, Cəmil müəllim. Belə nankor, ölçü-biçisi olmayan, ömründə bircə söyüd əkməyən, cəmiyyətdə yeri bilinməyənlər haqqında çox kəsərli demişdir:

– Adam var doğulmayıb, sadəcə olaraq, törəyib. Belələri yaşamırlar, həyatda mövcud olurlar. Onlar ölmürlər, tələf olurlar. Təbiətin fauna və florasına xəlvəti əl qaldıranların cəzasını təbiət aşkar göstərir. Duyub dərk edə bilsək.

Zirinc barədə onu da demək yerinə düşər ki, respublikamızın Qusar rayonunda bu bitkinin zil-qara meyvəli növü də bitir. Məsələn, Badamlı mineral bulağının yaxınlığındakı dərədə süd kimi ağ, al-qırmızı zirinc meyvələrini görəndə könlümdən keçir ki, kaş qara zirincin pöhrələrindən tapıb gətirə biləm və elə bu rənglərin yanında bara sala biləm. Heç yadımdan çıxmır. 1961-ci ildə yeniyetmə çağında indiki Güney Qışlağın Koladəy massivində kişmiş kimi bir şirin zirinc koluna rast gəlmişdim. Dolu bir çanta şirin zirinci gətirib qonşulara da pay vermişdim. Olduqca sıxlıq olan həmin ərazidə bu günədək axtarsam da, həmin kolu tapa bilmirəm. Qara və şirin zirincin sorağındayam. Sağlıq olsun.

**Qaşdar ƏLİYEV**
***aqronom-fenoloq***

# İlk dövrədə son turun son oyunu




Futbol üzrə Azərbaycan I divizionunun hazırkı lideri "Araz-Naxçıvan" futbol komandası çempionatın ilk dövrəsinin son turunda "Qaradağ-Lökbatan"ı qəbul edəcək. İlk dövrəni lider kimi başa vurmaq istəyən Naxçıvan təmsilçisi üçün bu matç böyük əhəmiyyət kəsb edir. Hazırda muxtar respublika komandasını bir xalla izləyən Bakı təmsilçisi son iki mövsümdə daha iddialı təsir bağışlayır. Belə ki, 2011-2012-ci illər mövsümünü çempion kimi başa vuran lökbatanlılar ötən mövsüm I divizionda gümüş medalla mükafatlandırılmışlar. Baş məşqçisi Adil Mahmudov olan "Qaradağ-Lökbatan" komandası cari mövsümdə yeganə məğlub olmayan komandadır. Buna baxmayaraq, rəqib turnir cədvəlində ən çox heç-heçə edən komandalardan biridir – 3 heç-heçə.

Mövsümə nəzər yetirdikdə "Qaradağ-Lökbatan" futbol komandası hələ ki ən az qol buraxan klubdur. Belə ki, lökbatanlılar cari ildə keçirdikləri 14 matçda qapılarından cəmi 4 qol buraxıblar. Rəqib qapılarına 30 dəfə yol tapan Adil Mahmudovun yetirmələri "Neftçala"dan sonra ən çox qol vuran ikinci komanda adını qazanıblar. Rəqibin oyun üçün Naxçıvana gələcəyi vaxt da artıq məlumdur. 15-ci turun mərkəzi qarşılaşmasını oynamaq üçün "Qaradağ-Lökbatan" muxtar respublikaya sabah təşrif buyuracaq. Onların günorta saatlarından sonra matçın keçiriləcəyi Naxçıvan Muxtar Respublika Stadionunda məşqə çıxacağı gözlənilir.

"Araz-Naxçıvan"a gəlincə, komandamız ötən tur ilk məğlubiyyətini aldıqdan sonra bu matça ciddi şəkildə hazırlaşır. Ən yaxın izləyicisi ilə oyunda qalib gəlib mövqeyini qorumaq üçün naxçıvanlılar gündə bir dəfə olmaqla oyunun hazırlıqlarını davam etdirirlər. Qırmızı-ağların heyətində ən böyük itki Emin İmaməliyevin oynaya bilməməsidir. Belə ki, əzələsi dartılan kapitan bu matçı da buraxmaq məcburiyyətində qalacaq. Bundan başqa, "Neftçala" ilə görüşdə zədələnərək oyunu yarımçıq tərk edən Bəxtiyar Soltanovun oynayıb-oynamaması həkimin son qərarından sonra dəqiqləşəcək.

Qeyd edək ki, "Araz-Naxçıvan" –"Qaradağ-Lökbatan" matçı dekabrın 22-də Naxçıvan Muxtar Respublika Stadionunda keçiriləcək. Oyunun başlama vaxtı isə saat $14^{00}$-dür.

**Ceyhun MƏMMƏDOV**

## Allah rəhmət eləsin

Naxçıvan Şəhər Təcili Tibb Mərkəzinin kollektivi Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin baş həkimi Kəmalə Qurbanovaya, anası **ZƏRİFƏ XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Muxtar Respublikası Kardioloji Mərkəzin baş həkimi Alı Əliyev və mərkəzin kollektivi Kəmalə Qurbanovaya və Sevinc Hüseynəliyevaya, əzizləri **ZƏRİFƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin baş həkimi Sevil İbrahimova və mərkəzin kollektivi Kəmalə Qurbanovaya, anası **ZƏRİFƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası QİÇS-lə Mübarizə və Profilaktika Mərkəzinin direktoru Hüseyn Mikayılov Kəmalə Qurbanovaya, anası **ZƏRİFƏ XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyinin kollektivi iş yoldaşları Nərgiz Həsənovaya, anası **FATMA XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Duzdağ Fizioterapiya Mərkəzinin baş həkimi Ruslan Süleymanov və mərkəzin kollektivi Kəmalə Qurbanovaya, anası **ZƏRİFƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkimlərindən Hafizə Rzayeva, Könül İbrahimova, Günay Hüseynova, Könül Əsgərova və Aysel Baxşıyeva mərkəzin baş həkimi Kəmalə Qurbanovaya, anası **ZƏRİFƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkimlərindən Bəhriyyə Əliyeva, İlhamə Nəsirova, Aysel İsmayılova, Bilqeyis Ələsgərova, Esmira Firudinbəyova və Aminə Dünyamalıyeva mərkəzin baş həkimi Kəmalə Qurbanovaya, anası **ZƏRİFƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkimlərindən Gülnarə Cahangirova, Günel Nuri, Gülmira Əzimova, Həbibə Əsədova və Ülviyyə Salmanova mərkəzin baş həkimi Kəmalə Qurbanovaya, anası **ZƏRİFƏ XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**ŞƏRQ qapısı**
**Baş redaktor: TURAL SƏFƏROV**

**Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.**
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: serqqapisi@nakhchivan.az

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

***Nömrəyə məsul:* Əli Cabbarov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 3940. Sifariş № 1145**